**"PRAYSVOTERHAUSKUPERS AUDİT AZƏRBAYCAN" MMC-NİN AUDİT DEPARTAMENTİNİN RƏHBƏRİ-PARTNYORU CƏNAB FƏXRİ MUSTAFAYEVƏ**

30

**Hörmətli Fəxri müəllim!**

*Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivi və üzvləri adından "PraysvoterhausKupers Audit Azərbaycan" şirkətinin ölkəmizdə fəaliyyətə başlamasının **30** illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivin üzvlərini səmimi qəlbdən təbrik edirəm.*

*Dünya audit arenasında aparıcı mövqeyə malik olan "PricewaterhouseCoopers Global (PwC)" şirkəti Azərbaycanda da öz ofisini açaraq peşəkar xidmətlər göstərən ilk beynəlxalq audit şirkəti olmuşdur. Bu gün "PwC Azərbaycan" şirkəti Azərbaycanda milli və beynəlxalq şirkətlərə, eləcə də dövlət müəssisələrinə beynəlxalq iqtisadi məsələlərlə bağlı müxtəlif peşəkar xidmətlər göstərir. Şirkətin təcrübəli mütəxəssisləri yerli və beynəlxalq mühasibat uçotu, xüsusilə CPA (ABŞ-ın Diplomlu İctimai Mühasibləri) və ACCA (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) lisenziyalarına sahibdir və bu proqramlarda iştirak edən işçilərin sayı ildən-ilə artır.*

*1995-ci ildən fəaliyyətə başlamış "PwC Azərbaycan" şirkəti son 30 il ərzində audit xidməti bazarında önəmli nailiyyətlər əldə edərək Azərbaycanın iqtisadiyyatına mühüm töhfələr vermiş, eyni zamanda hazırda 6 ölkədən seçilmiş beynəlxalq mütəxəssislər qrupu da daxil olmaqla işçilərinizin sayı 155-dən çox olmuşdur. Şirkətiniz qlobal miqyasda "PwC"-də toplanmış 150 illik təcrübə, yüksək səviyyəli bilik və praktik təcrübədən bəhrələnən biznes təşkilatlarına, dövlət qurumlarına və ictimai birliklərə xidmət göstərir.*

*"PwC Azərbaycan" şirkətinin Azərbaycanda fəaliyyətinin genişləndirilməsinə əsas səbəb ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il 20 sentyabr tarixində "Əsrin müqaviləsi"nin imzalanması nəticəsində müxtəlif iri xarici investorların fəaliyyətə başlaması olmuşdur.*

*Ümummilli liderimizin uzaqgörən müdrik siyasətinə əsaslanaraq möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən cəmiyyət həyatının bütün sahələrində, o cümlədən iqtisadiyyatda aparılan əzəmətli quruculuq işləri hər gün yenilənən, sürətlə inkişaf edən Azərbaycana həm neft, həm də qeyri-neft sahəsində fəaliyyət göstərən xarici şirkətlərin marağı artmışdır. "PwC Azərbaycan" şirkəti də ölkədə həyata keçirilən bu iqtisadi siyasətə öz töhfəsini vermək məqsədilə daim öz müştərilərinin yanında olmuş, onları hər zaman dəstəkləmiş və xarici şirkətlərlə birgə Azərbaycanda fəaliyyətinin miqyaslarını kifayət qədər genişləndirmişdir.*

*"PwC Azərbaycan" şirkəti Azərbaycanda yaranan ilk xarici audit şirkətlərdən olmaqla yanaşı, ölkəmizdə peşə fəaliyyətinin düzgün qurulması istiqamətində, o cümlədən üzv olduğu təşkilatlar və tərəfdaşlıq etdiyi ölkələrin audit və mühasibatlıq qurumları ilə ikitərəfli əlaqələrin qurulması istiqamətində mühüm işlər görərək böyük uğurlar əldə etmişdir. Belə ki, şirkətin əməkdaşları öz peşə və bilik səviyyəsini daim artırmaqla yanaşı, eyni zamanda beynəlxalq konfranslarda, simpoziumlarda, forumlarda, seminarlarda və s. fəal iştirak edirlər.*

*Azərbaycan Respublikasının Auditorlar Palatası ilə "PwC Azərbaycan" şirkəti arasında da çox sıx işgüzar münasibətlər mövcuddur. 01 yanvar 2010-cu ildən ölkəmizdə Beynəlxalq Audit Standartlarının tətbiqinə başlamasında şirkətinizin böyük rolu olmuşdur. Belə ki, şirkətinizin əməkdaşlarının Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2021-2030-cu illər), "Auditor fəaliyyəti haqqında" Azərbaycan Respublikasının yeni Qanun layihəsinin hazırlanmasında, eləcə də Auditorlar Palatasının ictimai həyatında (Komitələrdə, iclaslarda, tədbirlərdə və s.) iştirakı danılmazdır. Xüsusən qeyd etməliyik ki, Auditorlar Palatasının keçirdiyi beynəlxalq tədbirlərə "PwC Azərbaycan" şirkəti daim dəstək göstərməklə yanaşı, həmin tədbirlərdə fəal iştirakınız və orada yüksək səviyyəli çıxışlarınız həmişə rəğbətlə qarşılanmışdır. Sizin ötən dövr ərzində audit qanunvericiliyinin təkmilləşdirilməsi, normativ aktların, metodik vəsaitlərin, proqramların və digər sənədlərin hazırlanması və tətbiqində əməyiniz yüksək qiymətləndirilərək, dəfələrlə təşəkkür elan edilmiş, 2021-ci ildə isə Auditorlar Palatasının yüksək mukafatı olan "Fəxri Auditor" döş nişanına laiq görülmüsünüz.*

**Hörmətli Fəxri müəllim!**

*Biz ölkəmizin inkişafı naminə bu əməkdaşlığın gələcəkdə də genişləndirilməsi istiqamətində birgə səylərimizi davam etdirəcəyik.*

*"PwC Azərbaycan" şirkətinin bütün kollektivini əlamətdar yubiley münasibətilə bir daha təbrik edir və doğma Azərbaycanımızın tərəqqisi naminə şərəfli işinizdə sizə uğurlar arzulayıram.*

**Dərin hörmətlə** **Vahid NOVRUZOV,**

**Azərbaycan Respublikası**

**Auditorlar Palatasının sədri,**

**iqtisad elmləri doktoru, professor**

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic

*18.11.2025-ci il*